**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.202

**RÜFƏT RAMAZANOV***

# KİNO MUSİQİSİNİN ELMİ-YARADICI MAHİYYƏTİ VƏ ONUN XARAKTERİK JANR XÜSUSİYYƏTLƏRİ.

*Biz incəsənəti yaratdıqca, o da, bizi yaradır.*
*Q. Roberts."Şantaram"*

*Məqalə kino musiqisinə həsr olunmuşdur. Burada, kino musiqisinin xarakterik xüsusiyyətləri elmi-nəzəri və yaradıcılıq baxımından təhlil olunmuşdur. Bu janrda yaradılan musiqinin, ədəbiyyat, rəssamlıq, rejissorluq, aktyorluq sənətlərinin musiqi ilə paralelliyi və sintezi təhlil olunmuşdur. Məqalədə, kino musiqisinin digər janrlarla əlaqəsi və onun inkişaf mərhələləri göstərilmişdir. Tədqiqatda, müasir dövrün tələbi olan kompüter texnologiyasının bu janra olan təsiri araşdırılmışdır. Məqalədə, professionallıq əsas kriteriya kimi göstərilir və Azərbaycan kinosunun dünya səviyyəsində rolu təhlil edilir.*

**Açar sözlər:** *Kino, musiqi, bəstəkar, janr, yaradıcılıq.*

Azərbaycan professional musiqi yaradıcılığında kino musiqisi, olduqca zəngin ənənəyə malikdir. Elmi-nəzəri nöqteyi-nəzərdən yanaşanda, musiqinin bütün janrları klassik ənənəyə əsaslansa da, onun inkişaf mərhələləri, eyni zamanda, onun təkamül prosesi, məhz bəstəkarların yaradıcılığında özünün əsas mahiyyətini tapır. Bütün bəlli olan janrlar sırasında özünü parlaq şəkildə ifadə edən, eyni zamanda, müasir həyatımızın tərkib hissəsinə çevrilən kino musiqisidir ki, sənətindən, ixtisasından asılı olmayaraq, hər bir insanın nəzər-diqqətini özünə cəlb edir. Kino musiqisinin əsas, xarakterik xüsusiyyətlərindən biri də, onun müxtəlif janrlar nümunəsində yaranmış *sintez* əsaslı quruluşudur. Belə ki, kino musiqisi, əsas etibarilə *tədbiqi musiqi janrı* kimi mənalandırılsa da, onun tərkibində bir neçə janrın təsiri özünü bariz şəkildə göstərir. Məsələn, simfonik musiqi, kamera-instrumental, vokal, vokal-simfonik, balet (filmdə istifadə olunan xoreoqrafiq musiqi) və s. janrların qarşılıqlı təsiri, məhz kino musiqisində özünü göstərərək, sintez ifadəli quruluş prinsipini yaradır.(Həmin spesifik problem mövzusunda biz uşaq musiqisi haqqında yazılmış elmi məqalədə də, qeyd etmişdik.) [1.s.18.]

Yuxarıda qeyd etdiklərimizlə yanaşı, bu janrda hər bir bəstəkarın fərqli yanaşma tərzi özünü göstərir ki, bu da, məhz yaradıcılığın əsas və başlıca mahiyyətini əks etdirir. Bu mövzuda, görkəmli musiqişünas-alim A.S. Oqolevetsin fikirləri maraqlıdır. - "Hər bir bəstəkarın öz fərdi üslubu mövcuddur. Bu xüsusiyyət, onun yaradıcılığı üçün çox qiymətlidir." [2. s.5] Bunu əsas tutaraq, burada professionallığın da, çox vacib və əvəzolunmaz rolunu xüsusilə vurğulamaq lazımdır.

Artıq qeyd etdiyimiz kimi, tədbiqi janrın bir qolu olan *kino musiqisinin*, özünü digər başqa klassik janrlardan törəmə (və ya sintez) xüsusiyyətindən yaranması, bir fakt olaraq özünü sübut edir.

Qeyd etmək lazımdır ki, kinematoqrafiyada musiqinin rolu, ilk növbədə ssenarinin dramaturji quruluşunda bəlli olan, başqa sözlə desək, yazıçının nəzərdə tutduğu obrazların, ssenarinin fəlsəfi həllində özünü göstərən başlıca ideyaya xidmət edir. Yəni, kino bir sintez sənət olmaqla, filmdə hər bir sahəni, ssenarini, musiqini, rejissor işini, rəssamlığı və b. sənət növlərini bilavasitə özünə tabe edir. Amma, h\r bir yaradıcı insan, sənətindən asılı olmayaraq, öz işində əsas ideyaya xidmət etməklə, öz işində individuallığı, professionallığı nəzərə almaqla öz yaradıcı üslubunu yaradır. Musiqi də, burada çox vacib amillərdən biri olmaqla, filmdə vacib vəzifəni daşıyır.

Bəzən, kino sənətində musiqinin qeyri-peşəkar olması, ümumilikdə audio-vizual sənətin nəticəsinə çox mənfi təsir göstərir. Çünki, yaradıcı qrupun ümumilikdə peşəkar səviyyəsi qarşısında, musiqinin *"LAL"* olması, bütün filmin ideya və onun ifadəsəində neqativ reaksiyanı yaradır. Musiqinin *"Lal"* olması ifadəsində, musiqinin "danışmaq" bacarığına malik olması nəzərdə tutulur. "Lal" ifadəsi altında, musiqinin heçnə ifadə edə bilməməsi və obrazın açılmasında, situasiyanın

"nəql" etmək bacarığından məhrum olması nəzərdə tutulur. Nəticədə isə yaradıcı baxımdan uduzan, məhz filmin özü olur. "Musiqi tam səmimidir. O, yalan demir". [3.s.252] Musiqi ilə, həmçinin başqa sənət sahələrində olduğu kimi, tamaşaçı və dinləyicini aldatmaq mümkün deyil. Ona görə ki, hər bir baxılan filmdə, musiqi tamaşaçı tərəfindən,digər sənət növləri ilə paralel olaraq qavranılır və yadda qalır. Hətta, bizim bir çox filmlərimizi tamaşaçılar, onun məhz musiqisi ilə tanıyır. Bu baxımdan, filmin musiqisində qeyri-peşəkarlıq çox aydın şəkildə sezilərək hiss olunur və duyulur. Onu da qeyd etmək lazımdır ki, əsasən qeyri-peşəkar yazılmış musiqi, olduqca kobud bir *plaqiat* üzərində əsaslanır.

Bir çox hallarda, filmin musiqi həllinə bir qədər laqeyq və qeyri-ciddi yanaşırlar. Bu, yeni çəkilən filmdə başqa filmlərin musiqisindən və ya tamamilə filmin obrazına yad olan saund-treklərdən istifadə olunur."Melodiyada, hissləri təsvir edən intonasiyanı çatdırmağa çalışırlar"[4.s.269] Ancaq, bu kimi istifadə özünü doğrultmur və tamaşaçını filmin aparıcı xəttindən uzaqlaşdıraraq, tamamilə yanlış bir istiqamətə yönləndirir. Bu nöqteyi-nəzərdən, biz musiqi sənətinin mövcud tərifini xatırlatmaq istərdik. *"Musiqi bir dildir, onun köməyi ilə o, bu və ya digər fikirləri ifadə edir".* Bu baxımdan, musiqi "dilini" dərk edib, hiss edən insan, onun tamamilə yad fikirləri ifadə etməsini anlayır və duyur. Bu da, filmin ümumilikdə tamaşaçıya aşıladığı ideya və fikirlərin yanlış qavranılmasına və ssenari ilə musiqi arasında ziddiyyət yaratmasına səbəb olur. Hər bir filmin istehsalında bütün qrupun professionallığı ilə yanaşı, eyni zamanda, bəstəkar işi də, ali təhsilli peşəkarlar olmalıdır.

Son zamanlar, kompüter texnoloqiyasının, proqramlaşmanın inkişafı, onun incəsənət sahəsinə olan müdaxiləsi, bir növ adət halını almışdır. Burada, süni intellektin inkişaf həddi, məhz musiqinin də "yazılmasına" olan istiqamətləndirilməsi, artıq zəmanəmizin son uğurlarından hesab edilir. Ancaq, qeyd etmək lazımdır ki, süni intellekt də, əvvəlcədən proqramlaşdırılmaya möhtacdır. Musiqi sahəsində süni intellekt, ancaq mövcud olan məşhur əsərlərin əsasında, onun *populyar intonasiyalarının* materialında əsaslandırılmış və qurulmuşdur. Nəinki musiqi, eyni zamanda, incəsənətin başqa sahələrində olduğu kimi, süni intellekt orijinal ideyanı yarada bilmir, yalnız mövcud olan musiqi fikirlərinin əsasında öz variantını qurur. Orijinal musiqi (sənət) ideyası, ancaq insanın təfəkküründə *"doğan"* və bilavasitə təbiətin yaratdığı qanunauyğunluqlar süzgəcindən keçərək bəlli ola bilən bir varlıqdır.

Hələ keçmiş Sovetlər dönəmində, Azərbaycan filmləri, özünün individuallığı, orijinallığı ilə çox fərqlənirdi. Eyni zamanda, musiqi, rəssamlıq, ədəbiyyat (ssenari) bir sintez sənət olaraq, özünün böyük inkişaf yolunu keçmiş və bu sahədə böyük məktəb yaratmışdır. Ümidvarıq ki, Azərbaycanın milli kinosu, müstəqillik dövründə də, özünün parlaq əsərlərini nümayiş edib və dünya səviyyəsində öz layiqli izini yaradacaq.

## ƏDƏBYYAT


**1.** Оголевец А. С. Специфика выразительных средств музыки. М.: Советский композитор, 1969, с. 5, 586 с.

**2.** Bax: Rüfət Ramazanov. Bəstəkarların yaradıcılığında uşaqlar üçün yazılmış musiqi və onun xarakterik janr xüsusiyyətləri. Bakı, Sənət Akademiyası, № 4 (24) 2023, s.18.

**3.** Ливанова Т.Н. Западноевропейская музыка xvii-xviii веков в ряду искусств. М.: Музыка, 1977, с. 252, 528 с.

**4.** Руссо Ж.Ж. Избранные сочинении Т.1., М.: 1961, с.269. В кн.: Ливанова Т.Н. Западноевропейская музыка xvii-xviii веков в ряду искусств. М.: Музыка, 1977, с. 478-479.


***Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyası,***
***Elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi.***
***Bəstəkar, Azərbaycan Bəstəkarlar və Kinematoqrafçılar İttifaqının üzvü.***
***E-mail : rufatcomposer25@gmail.com***

**Rufat Ramazanov**

## SCIENTIFIC AND CREATIVE ESSENCE OF FILM MUSIC AND ITS CHARACTERISTIC GENRE FEATURES

The article is dedicated to film music. Here, the characteristic features of film music are analyzed from a scientific, theoretical and creative point of view. The parallelism and synthesis of music created in this genre with literature, painting, directing and acting are analyzed. The article shows the relationship between film music and other genres and the stages of its development. The article explored the influence of modern computer technologies on this genre. The article identifies professionalism as the main criterion and analyzes the role of Azerbaijani cinema at the global level.

**Keywords:** *Cinema, music, composer, genre, create.*

**Рюфет Рамазанов**

## НАУЧНО-ТВОРЧЕСКАЯ СУЩНОСТЬ КИНОМУЗЫКИ И ЕЕ ХАРАКТЕРНЫЕ ЖАНРОВЫЕ ОСОБЕННОСТИ

Статья посвящена киномузыке. Здесь с научно-теоретической и творческой точки зрения анализируются характерные особенности киномузыки. Проанализированы параллелизм и синтез музыки, созданной в этом жанре, с литературой, живописью, режиссурой и актерского мастерства. В статье показаны взаимосвязь киномузыки с другими жанрами и этапы ее развития. В статье было исследовано влияние современных компьютерных технологий на этот жанр. В статье в качестве основного критерия указывается профессионализм и анализируется роль азербайджанского кино на мировом уровне.

**Ключевые слова:** *Кино, музыка, композитор, жанр, творчество.*

*AMEA-nın mxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 01.10.2025**
**Son daxilolma tarixi:04.11.2025**